# Xəzər Universitetinin fəlsəfə doktorluğu proqramı üzrə əsasnaməsi

Khazar University

**Bakı – 2025**

**MÜNDƏRİCAT**

1. ÜMUMİ MÜDDƏALAR........................................................................................................3
2. FƏLSƏFƏ DOKTORLUĞU PROQRAMI ÜZRƏ DOKTORANTURAYA QƏBUL......................3
3. ELMİ RƏHBƏRİN VƏ DİSSERTASİYA MÖVZUSUNUN TƏSDİQ EDİLMƏSİ ......................4
4. DOKTORANTLARA QARŞI QOYULAN TƏLƏBLƏR..............................................................4
5. DOKTORANTLARIN İLLİK ATTESTASİYASI..........................................................................7
6. FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİNİ ALMAQ ÜÇÜN TƏQDİM EDİLMİŞ DİSSERTASİYALARA DAİR TƏLƏBLƏR.........................................................................7
7. DİSSERTASİYANIN TƏRTİBİ QAYDASI..................................................................................7
8. DİSSERTASİYANIN MÜDAFİƏSİ PROSESİ ..........................................................................14
8.1. Dissertasiyanın ilkin müzakirəsi
8.2. Dissertasiyanın müdafiəsi
Əlavə 1..............................................................................................................................17
Əlavə 2..............................................................................................................................18
Əlavə 3..............................................................................................................................19
Əlavə 3.1 ..........................................................................................................................21
Əlavə 3.2 ..........................................................................................................................23
Əlavə 4..............................................................................................................................25

Khazar University

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Fəlsəfə doktorluğu üzrə təhsil alan bütün tələbələr bu əsasnamənin öhdəliklərini tam yerinə yetirməlidir. Yalnız bu halda onlar Xəzər Universitetinin fəlsəfə doktorluğu diplomunu əldə edə bilərlər.

1.2. Bununla yanaşı iddiaçı Azərbaycan Respublikasının fəlsəfə doktorluğu diplomunu əldə etmək istəyirsə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin qaydalarına uyğun olaraq dissertasiya işini müdafiə etməlidir.

1.3. Doktoranturada təhsilalma əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir.

1.4. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il və qiyabi 4 ildir.

1.5. Doktoranturada təhsil alan tələbələrə müxtəlif (illik təhsil haqqında 75%-ə qədər güzəştlər; qadın namizədlər üçün Nailəxanım tam təqaüdü, "Heydər Əliyev - Beynəlxalq təhsil üzrə qrant proqramı" və s.) təqaüd proqramları təklif olunur.

1.6. Xəzər Universiteti doktoranta bütün mərhələlərdə dəstək olur.

## 2. FƏLSƏFƏ DOKTORLUĞU PROQRAMI ÜZRƏ DOKTORANTURAYA QƏBUL

2.1. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən) Azərbaycan Respublikasının vətəndaşları və əcnəbi vətəndaşlar qəbul olunurlar.

2.2. Əcnəbi vətəndaşların doktoranturaya qəbulu Xəzər Universitetinin daxili qaydalarına əsasən keçirilir. Əcnəbi vətəndaşlar doktoranturaya qəbul üçün Xəzər Universitetinin veb-saytında yerləşdirilimiş ərizə formasını dolduraraq, tələb olunan sənədlər ilə birlikdə müraciət edir. Hər bir namizəd ilə qəbul komissiyası müsahibə apararaq müvafiq qərar qəbul edilir. https://international.khazar.org/

2.3. Doktoranturaya qəbul olmaq istəyən şəxslə nəzərdə tutulan elmi rəhbər(lər) müsahibə keçirir və rəhbərliyi həyata keçirmək barədə razılıq və ya imtina qərarını yazılı surətdə qəbul komissiyasına təqdim edir. İmtina olunduğu halda digər elmi rəhbər təklif edilir.

2.4. Xarici dövlətlərdə təhsil almış iddiaçılar qəbuldan sonra ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surətini və diplomun Azərbaycan Respublikasında tanınması haqqında şəhadətnaməsini təqdim edilməlidir.

## 3. ELMİ RƏHBƏRİN VƏ DİSSERTASİYA MÖVZUSUNUN TƏSDİQ EDİLMƏSİ

3.1. Dissertasiyaların mövzularının təsdiq edilməsi və elmi rəhbərlərin təyin edilməsi doktoranturaya qəbul olunma haqqında qərar qəbul olunan gündən 4 aydan gec olmamaq şərtilə universitetin elmi şurasında hər bir iddiaçı üçün ayrı-ayrılıqda həyata keçirilir.

3.2. Dissertasiya ilə bağlı tədqiqat işlərinin iki müxtəlif elm sahəsi və ya iki ixtisas üzrə aparılması planlaşdırıldıqda elmi dərəcəsi olan iki rəhbər təyin olunur.

## 4. DOKTORANTLARA QARŞI QOYULAN TƏLƏBLƏR:

4.1. Doktorant təhsil müddətində:

- Müvafiq sahə üzrə biliklərini dərinləşdirməli;
- Elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli;
- Fərdi iş planını tam yerinə yetirməli;
- Xəzər Universitetinin tələb etdiyi fənləri müvəffəqiyyətlə tamamlamalı;
- İxtisas fənnindən (həmçinin ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fəndən) və xarici dildən doktorluq imtahanlarını verməli;
- Elmi tədqiqat nəticələrini əks etdirən məqalələr dərc etdirməli;
- Elmi tədqiqat nəticələrini konfrans, simpozium və s. tədqim etməli və nəşr etdirməli;
- Dissertasiya işini yazmalı və müdafiə etməli;

4.2. Cədvəl 4.1-də qeyd olunan tələbləri yerinə yetirən və elmi tədqiqat işini bitirən doktorantlar "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılır.

*Cədvəl 4.1 Tələblər.*

| **Tələblər** | **Kredit (AKTS)** |
|---|---|
| Tədris olunan fənlər | 54 |
| Fəlsəfə doktorluğu imtahanı (İxtisas fənni) | 6 |
| Elmi nəşrlər | 60 (hər jurnal məqaləsi – 20 AKTS, hər konfrans materialı – 10 AKTS) |

| | |
|---|---|
| Dissertasiya işi | 60 |
| **Cəmi** | **180** |

*Cədvəl 4.2 Tədris olunan fənlər.*

| № | Fənnin şifri | Fənnin adı | Krediti | Ümumi saat | Semestr |
|---|---|---|---|---|---|
| 1 | RSM 900 | Tədqiqat metodları | 8 | 60 | I |
| 2 | MATH 910 | Statistika | 8 | 60 | I |
| 3 | | Xarici dil I | 8 | 60 | I |
| 4 | | Akademik yazı | 6 | 45 | II |
| 5 | | Xarici dil II | 8 | 60 | II |
| 6 | | Data elmləri | 8 | 60 | II |
| 7 | | Seçmə fənn ( ixtisasa uyğun olaraq) | 8 | 60 | II |
| **Cəmi** | | | **54** | **405** | |

4.3. Azərbaycan vətəndaşları üçün xarici dil İngilis dili, əcnəbi vətəndaşlar üçün Azərbaycan dilidir. Hər fənn üzrə keçid balı ən az 75-dir.

*Cədvəl 4.3 Elmi nəşrlərə qoyulan tələblər*

| № | Elmi nəşrlər | Sayı |
|---|---|---|
| 1 | Dissertasiyanın nəticələrinə dair Web of Science və ya Scopus indeksli elmi nəşrlərdə dərc olumalı məqalələrin sayı | 2 |
| 2 | Beynəlxalq konfranslarda elmi (konfrans, konqres, simpozium və s.) nəticələr üzrə dərc olunmuş məruzə və tezislərin sayı | 2 |

4.4. Dissertasiyaların əsas elmi nəticələrini əks etdirən elmi işlər Xəzər Universitetində keçirilən dissertasiya işinin ilkin müzakirəsindən əvvəl dərc edilməli və ya çapa qəbul olunmalıdır.

4.5. **Fəlsəfə doktorluğu imtahanları**

4.5.1. Fəlsəfə doktoru imtahanlarının verilməsi iddiaçının dissertasiya müdafiəsinə buraxılması üçün mütləq şərtdir. Fəlsəfə doktoru imtahanları fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının attestasiyasının əsas tərkib hissəsi olub dissertasiyanın ilkin müzakirəsinədək verilir.

4.5.2. Doktoranta fəlsəfə doktorluğu imtahanlarından sonra imtahan nəticəsini özündə əks etdirən şəhadətnamə təqdim olunur.

4.5.3. Fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

4.5.4. Fəlsəfə doktoru imtahanları aşağıdakı fənlər üzrə verilir:

| | |
|---|---|
| **İxtisas fənni**<br><br>(Dissertasiya 2 (iki) ixtisas üzrə hazırlandığı halda həmin ixtisas fənlərinin hər birindən) | İmtahan Xəzər Universitetində təşkil olunur. |
| **Xarici dil**<br><br>1. Dissertasiyanı Azərbaycan və ya rus dillərində yazan və müdafiə edən iddiaçıları üçün **ingilis, alman və fransız** dillərindən biri.<br>2. Dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar Azərbaycan dilindən imtahan verirlər. | İmtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir |

## 5. DOKTORANTLARIN İLLİK ATTESTASİYASI

5.1. Doktorantlar ildə bir dəfə, ilin sonunda Xəzər Universiteti tərəfindən tələb olunan qaydaya (Forma 1a) uyğun olaraq attestasiyadan keçməlidirlər. Attestasiyada doktorantın elmi fəaliyyəti ilə bağlı hesabatı, elmi rəhbər və müvafiq departament müdirinin rəyləri dinlənilir. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir.

5.2. Attestasiyadan keçməyən doktorantın təqaüd məsələsinə yenidən baxılır və müvafiq qərar qəbul edilir. Attestasiyadan keçməyən doktoranta altı ay möhlət verilir və növbəti semestrin sonu yenidən həmin doktorantın attestasiyası keçirilir.

5.3. Ardıcıl olaraq iki dəfə attestasiyadan keçməyən tələbə universitetdən xaric olunur. Həmin doktorant 3 il ərzində rəsmi şəkildə müraciət edərək yenidən eyni ixtisasa bərpa oluna bilər.

## 6. FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİNİ ALMAQ ÜÇÜN TƏQDİM EDİLMİŞ DİSSERTASİYALARA DAİR TƏLƏBLƏR

6.1. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya iddiaçının müstəqil elmi işi olaraq, müvafiq elm sahəsində əhəmiyyət kəsb edən problemin həllinə həsr olunmalıdır.

6.2. Dissertasiyanın yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə istinad etməlidir.

6.3. Kollektiv müəlliflərə mənsub elmi ideyalardan istifadə olunursa, iddiaçı bu barədə dissertasiyada müvafiq şəkildə qeyd etməlidir.

6.4. Dissertasiya Azərbaycan, ingilis və ya rus dillərində təqdim edilə bilər.

6.5. Dissertasiya iddiaçı, elmi rəhbər və ya elmi məsləhətçi tərəfindən imzalanmalıdır.

## 7. DİSSERTASİYANIN TƏRTİBİ QAYDASI

### 7.1. Ümumi müddəalar

7.1.1.“Dissertasiyanın tərtibi Qaydası” (bundan sonra - Qayda) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 3.13-cü bəndinə uyğun hazırlanmışdır.

7.1.2. Dissertasiyanın mətni A4 formatında, səhifədə soldan – 30 mm, sağdan – 10 mm, yuxarı və aşağıdan – 20 mm boş sahə saxlanılmaqla, Azərbaycan dilində latın, rus dilində kiril və ingilis dilində ingilis (ABŞ) əlifbası, “Times New Roman” 14 şrifti ilə 1,6 sətirarası intervalla qara rənglə yazılır.

7.1.3. Dissertasiyanın struktur bölmələrinin adları böyük hərflərlə, tünd qara rənglə yazılır.

7.1.4. Dissertasiyada şəkillər, cədvəllər, qrafiklər rəngli, A3 (297 mm x 420 mm) formatında verilə bilər və hər bir A3 formatlı səhifə bir səhifə kimi qəbul edilir.

7.1.5. Dissertasiyanın titul səhifəsi nömrələnmir, növbəti səhifəsi “2” rəqəmindən başlayaraq, digər bütün səhifələri (dissertasiyanın struktur bölmələri, o cümlədən istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr) ərəb rəqəmləri ilə ardıcıl nömrələnir.

7.5.6. Dissertasiya səhifələrinin sıra nömrəsi hər bir səhifənin aşağı hissəsində, boş sahənin sağında yazılır.

7.1.7. Dissertasiya çoxcildli olduqda hər bir cildin ayrıca titul səhifəsi olmalı və digər səhifələri bu Qaydanın 7.1.6-ci bəndinin tələblərinə uyğun nömrələnməlidir.

Khazar Unive

7.1.8. Fəlsəfə doktoru dissertasiyası A4 formatında, həcmi iki yüz – iki yüz qırx min işarə (mətndəki boşluqlar və şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə), Humanitar elmlər üzrə dissertasiyanın həcmi iyirmi faizədək artıq, dəqiq və təbiət elmləri üzrə iyirmi faizədək az ola bilər.

7.1.9. Dissertasiyanın bir səhifəsində yazılan işarələrin sayını kompüter vasitəsilə dəqiq müəyyən etmək mümkün olmadıqda, bir səhifədə yazılan mətn iki min işarəyə bərabər tutulur.

7.1.10. Dissertasiyada istifadə edilən iqtibaslar (sitatlar) dırnaq işarəsindən istifadə edilməklə kursivlə verilir.

7.1.11. Dissertasiyanın yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətndəki istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) verilir. Məsələn, [64, s.2.8.2], [2.8.6, c.2, s.82-83], [64, s.2.8.2; s.23], və s.

7.1.12. Dissertasiyanın mətnində iddiaçı tərəfindən alınmış hər bir nəticənin onun hansı əsərində çap olunduğuna dair istinad verilməsi tövsiyə olunur.

7.1.13. Dissertasiyanın mətni 80 qr/m2 A4 (210 mm x 297 mm) formatında ağ kağızın bir üzündə çap edilir.

7.1.14. Dissertasiyanın mətnindəki bütün məlumatlar aydın görünməlidir.

7.1.15. Dissertasiya işi tikilir və qalın üz qabığında təqdim edilir.

**7.2. Dissertasiyanın strukturu**

Dissertasiyanın strukturu dissertasiya tərtib edilərkən onun strukturunda aşağıdakı ardıcıllıq gözlənilməlidir:

- Titul səhifəsi;
- Mündəricat;
- Giriş;
- Dissertasiyanın əsas məzmunu (fəsil, paraqraf, bənd);
- Nəticə;
- İstifadə edilmiş ədəbiyyat siyahısı;
- Əlavələr;
- İxtisarların və şərti işarələrin siyahısı (dissertasiyada olduqda).

**7.2.1 Titul səhifəsi**

Dissertasiyanın titul səhifəsi "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"ın əlavələrinə (Əlavə 1.3, Əlavə 1.3.1 və Əlavə 1.3.2) uyğun tərtib edilir.

Khazar University

### 7.2.2 Mündəricat

7.2.2.1. Mündəricatda “Mündəricat” sözü başlıq kimi göstərilir və nömrələnmir.

7.2.2.2. Mündəricatda dissertasiyanın struktur bölmələrinin adları və onların başlanğıc səhifəsinin nömrələri əks olunur.

7.2.2.3. Çoxcildli dissertasiyalarda mündəricat birinci cilddə verilir.

7.2.2.4. Dissertasiyanın struktur bölmələrinin mündəricatdakı adları ilə mətndəki adları eyni olmalıdır.

### 7.2.3 Giriş

7.2.3.1. Girişdə “Giriş” sözü başlıq kimi göstərilir və nömrələnmir.

7.2.3.2. Dissertasiyanın girişində aşağıda qeyd olunan yarımbaşlıqlar tünd qara rənglə yazılmalı və abzasdan başlanmalıdır:

- Mövzunun aktuallığı və işlənmə dərəcəsi;
- Tədqiqatın obyekti və predmeti;
- Tədqiqatın məqsəd və vəzifələri;
- Tədqiqat metodları;
- Müdafiəyə çıxarılan əsas müddəalar;
- Tədqiqatın elmi yeniliyi;
- Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti;
- Aprobasiyası və tətbiqi;
- Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı;
- Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.

### 7.2.4. Dissertasiyanın əsas məzmunu (fəsil, paraqraf, bənd)

7.2.4.1. Dissertasiyanın əsas məzmunu fəsillərə və paraqraflara bölünür. Dissertasiyanın paraqrafları bəndlərə də bölünə bilər.

7.2.4.2. Dissertasiyanın hər bir fəsli rum rəqəmi ilə nömrələnir. Məsələn, I Fəsil; II Fəsil və s.

7.2.4.3. Dissertasiyanın fəsilləri yeni səhifədən başlanmalıdır.

7.2.4.4. Fəsillər daxilində paraqraflar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Paraqrafın nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin və paraqrafın nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur. Məsələn, 2.6. – yəni ikinci fəslin altıncı paraqrafı.

7.2.4.5. Paraqraf daxilində bəndlər olduqda onlar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Bəndin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqafın və bəndin nömrəsindən ibarətdir.

Khazar University

Nömrənin sonunda nöqtə işarəsi qoyulur. Məsələn, 2.6.1. – yəni ikinci fəslin altıncı paraqrafının birinci bəndi.

7.2.4.6. Fəsillərin adları mətndən üç intervalla, paraqraf adları isə mətndən iki intervalla ayrılır.

7.2.4.7. Fəsillərin adları mətnə simmetrik şəkildə, böyük hərflərlə, tünd qara rənglə, paraqrafların adları isə abzasdan sətri hərflərlə (birinci hərf istisna olmaqla) tünd qara rənglə yazılmalıdır.

7.2.4.8. Fəsillərin adlarının yazılışında sözlərin hecalara bölünərək sətirdən-sətrə keçirilməsinə yol verilmir. Fəsil və paraqrafların adlarının altından xətt çəkilmir və sonunda nöqtə qoyulmur.

7.2.4.9. Fəsil və paraqrafların adları iki və ya daha çox cümlədən ibarət olduqda, onların arasında nöqtə qoyulur.

**7.2.5. Nəticə**

7.2.5.1. Nəticədə "Nəticə" sözü başlıq kimi göstərilir və nömrələnmir.

7.2.5.2. Nəticədə əsas elmi yeniliklər göstərilməklə onların əhəmiyyəti əsaslandırılmalıdır.

7.2.5.3. Tətbiqi əhəmiyyəti olan dissertasiyada iddiaçının əldə etdiyi elmi nəticələrin praktikada tətbiqi barədə məlumat, nəzəri əhəmiyyəti olan dissertasiyada isə elmi nəticələrdən istifadə ilə əlaqədar tövsiyələr göstərilməlidir.

**7.2.6. İstifadə edilmiş ədəbiyyat siyahısı**

7.2.6.1. İstifadə edilmiş ədəbiyyat siyahısında "İstifadə edilmiş ədəbiyyat siyahısı" sözləri başlıq kimi göstərilir və nömrələnmir.

7.2.6.2. İstifadə edilmiş ədəbiyyat siyahısında əvvəlcə Azərbaycan dilində, sonra isə türk, rus, ingilis, fransız, alman, ərəb və s. dillərdə olan mənbələr hər bir dilə uyğun əlifba sırası ilə düzülür və ardıcıl olaraq nömrələnir.

7.2.6.3. İstifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatlar öz əksini tapmalıdır.

7.2.6.4. Biblioqrafik məlumatlar əlifba sırası ilə müəllifin soyadı, adı, atasının adı və ya nəşrin adı ilə verilir.

7.2.6.5. Dissertasiyada istifadə olunan mənbələrin biblioqrafik təsvirində aşağıdakı şərti işarələrdən istifadə edilir:

. nöqtə

, vergül

- defis

– tire

: qoşa nöqtə

Khazar University

/ çəpəki xətt

// qoşa çəpəki xətt

( ) mötərizə

[ ] kvadrat mötərizə

7.2.6.6. İstifadə edilmiş ədəbiyyat siyahısında ədəbiyyatın biblioqrafik təsviri bu Qaydaya Əlavə 4.1 ilə nəzərdə tutulan nümunələrə uyğun tərtib edilir.

**7.2.7. Əlavələr**

7.2.7.1. Əlavələrdə "Əlavələr" sözü başlıq kimi göstərilir və nömrələnmir.

7.2.7.2. Əlavələr ümumi işin davamı kimi səhifələnməlidir.

7.2.7.3. Əlavələr müstəqil cild şəklində də verilə bilər. Əlavələr müstəqil cild olduqda titul səhifəsi olmalı və ayrıca nömrələnməlidir.

7.2.7.4. Əlavələr "Times New Roman" 12 şrifti ilə 1,0 sətirarası intervalla yazılır.

7.2.7.5. Dissertasiyanın mətnində bütün əlavələrə istinad edilməlidir.

**7.2.8. Şəkillər**

7.2.8.1. Şəkillər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

7.2.8.2. Şəkillər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdə onlara rahat baxmaq mümkün olsun.

7.2.8.3. Dissertasiyada şəkillər ardıcıl nömrələnir.

7.2.8.4. Dissertasiyada bir şəkil olduqda, o nömrələnmir, "Şəkil" sözü və şəklin adı yazılır.

7.2.8.5. "Şəkil" sözü, onun nömrəsi və adı şəklin altında yazılır. "Şəkil" sözü və şəklin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Şəkillərin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və şəklin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Şəkil 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü şəkli.

7.2.8.6. Dissertasiyaya daxil edilən şəkillər keyfiyyətli olmalıdır.

7.2.8.7. Dissertasiyada kompüter qrafikası ilə yerinə yetirilmiş şəkillərdən və orijinal fotolardan istifadə etmək olar.

7.2.8.8. A4 formatından kiçik olan fotolar standart ağ vərəqə yapışdırılmalıdır.

7.2.8.9. Qeyri-standart ölçülü şəkillər qatlandıqdan sonra A4 formatına uyğun olmalıdır.

7.2.8.10. Dissertasiyanın mətnində olan şəkillərin hər birinə istinad edilir.

Khazar University

**7.2.9. Cədvəllər**

7.2.9.1. Cədvəllər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

7.2.9.2. Cədvəllər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdən sonra onları rahat oxumaq mümkün olsun.

7.2.9.3. Dissertasiyada cədvəllər ardıcıl nömrələnir.

7.2.9.4. Dissertasiyada bir cədvəl olduqda, o nömrələnmir, "Cədvəl" sözü və cədvəlin adı yazılır.

7.2.9.5. "Cədvəl" sözü, onun nömrəsi və adı cədvəlin üstündə sağ küncdə yazılır. "Cədvəl" sözü və cədvəlin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və cədvəlin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Cədvəl 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü cədvəli.

7.2.9.6. Cədvəl iki və daha çox səhifədə yerləşdikdə, "Cədvəl" sözü, onun nömrəsi və adı cədvəlin üstündə yuxarı sağ hissədə bir dəfə göstərilir. Cədvəlin qalan hissələrinin müvafiq yerlərində "ardı" sözü yazılır. Dissertasiyada bir neçə cədvəl olduqda "ardı" sözünün qarşısında "Cədvəl" sözü, onun nömrəsi qeyd edilir. Məsələn, Cədvəl 1.2.3-ün ardı.

7.2.9.7. Sətirlərin və sütunların sayı çox olan cədvəlləri hissələrə bölüb bir neçə səhifədə yerləşdirdikdə sətirlərdəki bütövlük gözlənilməlidir.

7.2.9.8. Dissertasiyanın mətnində olan cədvəllərin hər birinə istinad edilir.

**7.2.10. Qrafiklər**

7.2.10.1. Qrafiklər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

7.2.10.2. Qrafiklər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdə onlara rahat baxmaq mümkün olsun.

7.2.10.3. Dissertasiyada qrafiklər ardıcıl nömrələnir.

7.2.10.4. Dissertasiyada bir qrafik olduqda, o nömrələnmir, "Qrafik" sözü və qrafikin adı yazılır.

7.2.10.5. "Qrafik" sözü, onun nömrəsi və adı qrafikin altında yazılır. "Qrafik" sözü və qrafikin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Qrafiklərin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və qrafikin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Qrafik 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü qrafiki.

7.2.10.6. Dissertasiyanın mətnində olan qrafiklərin hər birinə istinad edilir.

Khazar University

**7.2.11. Formullar (tənliklər)**

7.2.11.1. Dissertasiyanın mətnində formulların (tənliklərin) sayı birdən çox olduqda ardıcıl nömrələnir.

7.2.11.2. Formulların (tənliklərin) nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və formulun ardıcıl nömrələrindən ibarətdir.

7.2.11.3. Formulların (tənliklərin) nömrəsi onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır. Məsələn, (3.1.2) – yəni, üçüncü fəslinbirinci paraqrafının ikinci formulu (tənliyi).

7.2.11.4. Formulda (tənlikdə) rast gəlinən simvolların mənası və ədədi əmsalların izahı, onların formuldakı (tənlikdəki) yerləşmə ardıcıllığı nəzərə alınraq, dissertasiyanın mətnində formuldan (tənlikdən) sonra və ya bilavasitə formulun (tənliyin) altında verilir. İzahatın birinci sətri "burada" sözündən başlamalıdır. Hər bir simvolun mənası və ədədi əmsalın izahı yeni sətirdə yerləşdirilir.

7.2.11.5. Formullar (tənliklər) mətndən intervalla ayrılır. Hər formulun üstündə və altında bir, zəruri hallarda isə iki interval saxlanılır. Formul (tənlik) bir sətrə yerləşmədikdə, onun ardı bərabərlik (=) və ya üstəgəl (+), çıxma (-), vurma (x), bölmə (:) işarələrinin hər hansı birindən sonra yeni sətrə keçirilir. Bu halda növbəti sətrin başlanğıcında müvafiq işarə təkrar yazılır.

**7.2.12. İxtisarlar və şərti işarələr**

7.2.12.1. Dissertasiyada geniş yayılmamış ixtisarlardan, şərti işarələrdən, spesifik terminlərdən, yeni simvollardan və s. istifadə edildikdə bu barədə müvafiq izahatlardan ibarət siyahı verilir.

7.2.12.2. Siyahı sütun şəklində yazılır, sütunun sol tərəfində əlifba sırası ilə ixtisarlar, şərti işarələr, spesifik terminlər, simvollar, sağ tərəfində onun dəqiq açılışı və mənası verilir.

7.2.12.3. Dissertasiyada xüsusi ixtisarlar, şərti işarələr, spesifik terminlər, simvollar üç dəfədən az təkrar edildikdə siyahı tərtib edilmir, onların dəqiq açılışı və mənası mətndə birinci dəfə qeyd olunduğu yerdə verilir.

## 8. DİSSERTASİYANIN MÜDAFİƏSİ PROSESİ

### 8.1. Dissertasiyanın ilkin müzakirəsi

8.1.1. Dissertasiya işi tamamlandıqdan və tələb olunan bütün öhdəliklər yerinə yetirildikdən sonra doktorant elmi rəhbərin müsbət rəyi əsasında dissertasiya işinin ilkin müzakirəsinin keçirilməsi üçün müvafiq akademik departamentə rəsmi müraciət edir.

8.1.2. Dissertasiya işi plagiat üçün yoxlanılır. Plagiat aşkar olunmadığı təqdirdə doktorant akademik departamentə müraciət etdiyi tarixdən 3 ay ərzində dissertasiya işinin ilkin müzakirəsi keçirilir.

Khazar University

8.1.3. Dissertasiya işinə rəy almaq üçün iş müvafiq akademik departament tərəfindən iki rəyçiyə (uyğun ixtisas üzrə elmi dərəcəsi olan mütəxəsisə) göndərilir.

8.1.4. Rəyçilər 2 ay ərzində dissertasiya işinə rəylərini yazılı şəkildə təqdim edirlər. Rəydə dissertasiya işində şərh olunan elmi nəticələrin alınmasında iddiaçının şəxsi iştirakı, tədqiqat nəticələrinin dürüstlük dərəcəsi, onların elmi yeniliyi, praktiki və metodiki əhəmiyyəti, dissertasiyanın müvafiq ixtisasa uyğun gəlməsi, iddiaçının dərc olunmuş işlərində dissertasiya materiallarının əks etdirilməsi dərəcəsi və s. göstərilməlidir.

8.1.5. Dissertasiya işinin ilkin müzakirəsində elmi rəhbər, rəyçilər və departamentin əməkdaşları iştirak edir.

8.1.6. İlkin müzakirə keçirilir və aşağıda qeyd olunan müvafiq qərarlardan biri qəbul olunur:

8.1.6.1. Dissertasiya işi müdafiəyə buraxılır.

8.1.6.2. Dissertasiya işi qeyd olunan iradlar düzəldilməklə müdafiəyə buraxıla bilər.

8.1.6.3. Dissertasiya işi müdafiəyə buraxılmır.

8.1.7. İlkin müzakirədə 8.1.6.2 bəndində qeyd olunan qərar qəbul edildiyi təqdirdə, doktoranta ilkin müzakirədə qeyd olunan irad və təklifləri nəzərə alaraq dissertasiya işində düzəlişlərin edilməsi üçün maksimum 3 ay vaxt verilir.

8.1.8. Doktorant düzəlişlər etdikdən sonra yenidən departamentə müraciət edir. Dissertasiya işi qeyd edilən iradların düzəldiş edilib-edilməməsi ilə bağlı rəy almaq üçün ilkin müzakirədə rəy verən mütəxəssislərə göndərilir. Rəyçilərin iradları düzəldildiyi təqdirdə dissertasiya işi müdafiəyə təqdim edilir.

8.1.9. İlkin müzakirədə 8.1.6.3 bəndində qeyd olunan qərar qəbul edildiyi təqdirdə iddiaçı dissertasiya işinin üzərində işləyir və bir il ərzində yenidən ilkin müzakirənin keçirilməsi üçün akademik departamentə müraciət edir.

**8.2. Dissertasiyanın müdafiə prosesi.**

8.2.1. Dissertasiya işinin müdafiəsi üçün iddiaçı ilkin müzakirənin nəticəsinə əsasən departament tərəfindən verilən geniş protokolla birlikdə universitetin rektoruna rəsmi müraciət edir.

8.2.2. Təqdim edilən dissertasiya işi yekun müdafiədən öncə plagiatlıq üçün yenidən yoxlanılır, əgər dissertasiya işində plagiat aşkar olunmazsa iddiaçının rəsmi müraciətindən sonra dörd ay ərzində dissertasiya işinin müdafiəsi təşkil olunur.

8.2.3. Rektorun əmri ilə müdafiə komissiyası yaradılır. Müdafiə komissiyasının tərkibi uyğun ixtisas üzrə beş nəfər mütəxəssisdən: sədr, katib və üzvlərdən ibarət olur.

8.2.4. Müəyyən olunan siyahı üzrə tələb olunan sənədlər (Əlavə 1) müdafiə komissiyasının katibinə təqdim edilir. Dissertasiyanın bir nüsxəsi əlyazması hüququnda saxlanılmaq üçün universitetin Kitabxana İnformasiya Mərkəzinə təqdim edilir.

8.2.5. Müdafiə komissiyası müvafiq elm sahəsində səriştəli alimlərdən ibarət (onların yazılı razılığı ilə) rəsmi iki opponenti təyin edir və dissertasiya işini rəyə göndərilir. Opponentlər müxtəlif təşkliatları təmsil etməlidirlər.

8.2.6. Dissertasiya işinin yazıldığı dildən asılı olaraq opponentlərdən biri xarici mütəxəsis ola bilər.

8.2.7. Rəsmi opponent dissertasiyanı və onun mövzusu üzrə dərc olunmuş elmi işləri araşdıraraq, dissertasiya şurasına iki ay ərzində yazılı rəy təqdim edir. Həmin rəydə mövzunun aktuallığı, nəticələrin yeniliyi və nəzəri-praktiki əhəmiyyəti və s. öz əksini tapmalıdır.

8.2.8. Rəsmi opponentlər tərəfindən müdafiə komissiyasına yazılı rəylər təqdim olunduqdan sonra müdafiə tarixi və vaxtı müəyyən olunur.

8.2.9. Universitetin rəsmi saytında bir ay öncədən müdafiənin keçirilməsi ilə bağlı elan, dissertasiya işinin keçiriləcəyi müdafiənin linki və dissertasiya işi yerləşdirilir.

8.2.10. Komissiya üzvlərindən başqa müdafiədə iştirak etmək istəyən digər şəxslər izləyici qismində müdafiəyə onlayn və ya canlı qoşula bilərlər. Səsvermə hüququ yalnız komissiya üzvlərinə məxsusdur.

8.2.11. Müdafiənin gedişinin videoçəkilişi aparılır və elektron daşıyıcıda saxlanılır.

8.2.12. Dissertasiyanın müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi etikaya riayət edilməsi şəraitində keçirilməlidir. Dissertasiyada olan bütün nəticələrin, elmi və nəzəri-praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması ilə əlaqədar məsələlər hərtərəfli müzakirə edilməlidir.

8.2.13. Dissertasiyanın müdafiəsində rəsmi opponentlərin iştirakı mütləqdir.

8.2.14. Müstəsna hallarda müsbət rəy vermiş rəsmi opponentlərdən yalnız birinin müdafiədə iştirak etməməsinə icazə verilir. Bu halda dissertasiya şurasının iclasında həmin rəsmi opponentin rəyi oxunur.

8.2.15. Dissertasiya işinin müdafiəsi prosesi:

- Dissertasiya komissiyasının sədri müdafiə prosesini açıq elan edir, doktorant haqqında və yerinə yetirdiyi öhdəliklərlə bağlı məlumat verir.
- Doktorant dissertasiya işi haqqında məruzə edir (maksimum 30 dəqiqə).
- Doktoranta müdafiədə iştirak edən komissiya üzvləri və digər əməkdaşlar tərəfindən suallar verilir.

- Opponentlərin rəyləri dinlənilir.
- Doktorant opponentlərin irad və təkliflərinə münasibət bildirir.
- Komissiya üzvləri və digər mütəxəsislər dissertasiya işi haqqında öz fikirlərini bildirirlər.
- Dissertasiyanın müdafiəsi bitdikdən sonra müdafiə komissiyası gizli səsvermə keçirir.
- Gizli səsvermənin nəticəsini müdafiə komissiyasının sədri açıqlayır.
- Müdafiənin keçirildiyi ixtisas üzrə iclasda iştirak edən müdafiə komissiyasının üzvlərinin 50 faizi iddiaçıya fəlsəfə doktoru elmi dərəcəsi verilməsinin lehinə səs verdikdə, gizli səsvermənin nəticəsi müsbət hesab edilir. Əks halda gizli səsvermənin nəticəsi mənfi hesab edilir
- Müdafiə prosesində gizli səsvermənin nəticəsi mənfi olduğu təqdirdə, iddiaçı 1 il ərzində opponentlərin və digər mütəxəsislərin qeyd etdiyi irad və təkliflərə əsasən dissertasiya işi üzərində yenidən işləyərək təkrar müdafiə üçün universitet rəhbərliyinə müraciət edə bilər.

8.2.16. Müdafiə komissiyasının katibi tərəfindən dissertasiya işinin müdafiəsinin protokolu və rəyi hazırlanaraq 1 həftə ərzində universitet elmi şurasında təsdiqlənməsi üçün rəhbərliyə təqdim edilir.

8.2.17. Dissertasiya müdafiəsinin protokolu və rəyi universitet elmi şurasında təsdiqləndikdən sonra bir həftə ərzində doktoranta Xəzər Universitetinin fəlsəfə doktorluğu diplomu təqdim olunur.

Khazar U

**Əlavə 1**

**Elmi dərəcə iddiaçısı tərəfindən müdafiəsi komissiyasına təqdim edilən sənədlərin siyahısı**

1. İddiaçının ərizəsi;
2. İddiaçının şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün pasportunun notariat qaydasında təsdiq olunmuş surəti)
3. İddiaçının doktoranturaya qəbulu haqqında qərarın (əmrin) surəti
4. Dissertasiya mövzusunun müəyyən edilməsi və elmi rəhbərin və ya elmi məsləhətçinin təsdiq olunması və ya onların dəyişdirilməsi haqqında Xəzər Universitetinin elmi şurasının iclasının protokolundan çıxarış
5. Dissertasiya mövzusunun Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının elmi istiqamətlər üzrə elmi şurasında təsdiq olunması və ya dəyişdirilməsi haqqında sənədin surəti
6. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələr (ixtisas fənni üzrə şəhadətnamələr imtahan protokolunun surəti ilə birlikdə təqdim edilir)
7. Transkript
8. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısı üçün onun pedaqoji fəaliyyətlə məşğul olduğu müvafiq təhsil müəssisəsindən pedaqoji iş stajı (ən azı iki il) haqqında arayış
9. Dissertasiya (cildlənməli və titul vərəqi iddiaçı, elmi rəhbər və ya elmi məsləhətçi tərəfindən imzalanmalıdır) – 1 nüsxə və onun elektron versiyası
10. Xaricdə təhsil almış iddiaçı üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair verilmiş sənədin surəti
11. Elmi rəhbər və ya elmi məsləhətçi tərəfindən imzalanmış və onun əsas iş yerində təsdiqlənmiş rəy
12. Dissertasiya işinin ilkin müzakirəsi üçün mütəxəssislər tərəfindən verilmiş rəylər
13. Dissertasiyanın mövzusuna dair dərc olunmuş elmi işlərin təsdiq olunmuş siyahısı (Əlavə 1.15)
14. Həmmüəllifli elmi işlərdə iddiaçının şəxsi payı göstərilmədikdə iddiaçının həmin işlərdə şəxsi payını əks etdirən, iddiaçı və həmmüəlliflər tərəfindən imzalanmış arayış
15. Dissertasiyanın mövzusuna dair dərc olunmuş elmi işlərin surətləri (o cümlədən elektron daşıyıcıda);

Khazar University

**Əlavə 2**

________________________________________ dərc olunmuş elmi işlərinin
(iddiaçının elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

**S İ Y A H I S I**

| Sıra nömrəsi | İşin tam adı | İşin növü | İşin çap və ya dərc olunduğu nəşrin adı, yeri | Elmi nəşrin tarixi | Elmi nəşrin nömrəsi | İşin həcmi (işarə sayı) və səhifəsi | Həmmüəlliflər | Elmi nəşrin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin adı (internetdəki mənbənin linki göstərilməklə) |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | | |
| 2. | | | | | | | | |

Müəllif

____________ ______________________________
(imza) (adı, atasının adı, soyadı)

________________________________________
(elmi müəssisə və təşkliatın, ali təhsil müəssisəsinin adı)

Elmi şuranın katibi

____________ ______________________________
(imza) (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

**Qeyd:**

1. Elmi müəssisə və təşkliatın, ali təhsil müəssisəsinin elmi (elmi-texniki) şurasının elmi katibi tərəfindən tarix göstərilməklə siyahının hər bir səhifəsi yoxlanılır, imzalanır və təşkilatın müvafiq möhürü ilə təsdiq edilir;
2. "İşin növü" sütunundakı məlumatlar xronoloji qaydada aşağıdakı ardıcıllıq gözlənilməklə tərtib edilir: elmi məqalə, konfrans materialı, tezis, monoqrafiya, kitab, patent və s.

Khazar University

**Əlavə 3**

**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

______________________________________________

(dissertasiyanın mövzusu)

İxtisas: ______________________________________

(ixtisasın şifri və adı)

Elm sahəsi: ______________________________________

(elm sahəsinin adı)

Fəlsəfə doktoru (Elmlər doktoru)

elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: ____________ ______________________________

(imza) (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

Elmi rəhbər
(Elmi məsləhətçi): ____________ ______________________________

(imza) (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

_____ – _____

**(şəhər)** **(il)**

**Qeyd:**

1.Dissertasiyanın titul səhifəsi “Times New Roman” 14 şrifti ilə yazılır;

2.Dissertasiyanın mövzusu, “AZƏRBAYCAN RESPUBLİKASI” və “DİSSERTASİYA” sözləri böyük hərflərlətünd qara rənglə, “Əlyazma hüququnda” sözləri kursivlə sətri hərflərlə yazılır;

3.İxtisas və elm sahəsi “Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələrverilməsinə dair ixtisasların nomenklaturu”na uyğun olaraq yazılır;

4.Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər iki ixtisas qeyd edilir;

5.İddiaçının, elmi rəhbər və ya elmi məsləhətçinin adı, atasının adı, soyadı, şəhər adı və il sətri hərflərlətünd qara rənglə yazılır;

6.İddiaçının, elmi rəhbər və ya elmi məsləhətçinin imzaları üçün nəzərdə tutulan xətlər istisna olmaqla xətlərvə xəttaltı şərhlər çap olunmur.

Khazar University

Əlavə 3.1

**АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА**

*На правах рукописи*

_______________________________________________
(тема диссертации)

Специальность: _______________________________________
(шифр и наименование специальности)

Отрасль науки: _______________________________________
(наименование отрасли науки)

**ДИССЕРТАЦИЯ**

на соискание ученой степени

доктора философии (доктора наук)

Соискатель: ____________ ______________________________
(подпись) (ученая степень, ученое звание, фамилия, имя, отчество)

Научный руководитель
(Научный консультант): ____________ ______________________________
(подпись) (ученая степень, ученое звание, фамилия, имя, отчество)

_____ – _____
(город) (год)

**Примечание:**

1.Титульный лист диссертации пишется шрифтом «Times New Roman» 14;

2.Тема диссертации и слова «АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА», «ДИССЕРТАЦИЯ» пишутся заглавными буквами, полужирным шрифтом, слова «На правах рукописи» – строчными буквами, курсивом;

3.Специальность и отрасль науки указываются в соответствии с «Номенклатурой специальностей по присуждению ученых степеней научным и научно-педагогическим работникам»;

4.Если тема диссертации охватывает две специальности, то указываются обе специальности;

5.Фамилия, имя, отчество соискателя, научного руководителя или научного консультанта, название города и год пишутся строчными буквами, полужирным шрифтом;

6.Линии (за исключением линий, предназначенных для подписи соискателя, научного руководителя или научного консультанта) и подстрочные пояснения не печатаются.

Khazar University

Əlavə 3.2

**THE REPUBLIC OF AZERBAIJAN**

*On the rights of the manuscript*

______________________________________________________________

(title of the dissertation)

Speciality: ______________________________________________

(code and name of the specialty)

Field of science: ______________________________________________

(name of the field of science)

**DISSERTATION**

for a degree

Doctor of Philosophy (Doctor of Science)

Applicant: _____________ ______________________________________

(signature) (academic degree, academic title, surname, name, patronymic)

Scientific adviser
(Scientific consultant): _____________ ______________________________________

(signature) (academic degree, academic title, surname, name, patronymic)

_____ – _____

**(city)** **(year)**

**Note:**

1. The title page of the dissertation is written in Times New Roman 14;
2. The title of the dissertation and the words "THE REPUBLIC OF AZERBAIJANIAN ", "DISSERTATION" are written in capital letters, in bold, the words "*On the rights of the manuscript*" in lowercase letters and italics;
3. The specialty and field of science are indicated in accordance with the " Nomenclature for specialities on conferring scientific degrees on scientific and scientific-pedagogical workers in the Republic of Azerbaijan ";
4. Both specialities should be mentioned when the subject of the dissertation covers two specialities;
5. Last name, first name, patronymic of the applicant, supervisor or scientific consultant, city name and year are written in lower case, bold type;
6. Lines (with the exception of lines intended for the signature of the applicant, supervisor or scientific consultant) linear comments are not printed.

Khazar University

**Əlavə 4**

| № | Nəşrin növü | Biblioqrafik təsvirin forması | Nümunələr |
|---|---|---|---|
| 1. | Çoxcildli nəşrlər | Müəllif (soyadı, inisialları). Əsərin adı: [cildlərin sayı] / Müəllifin inisialları, soyadı. – şəhər: nəşriyyat, – cildin nömrəsi. – nəşr ili. – həcmi.<br><br>Əsərin adı / Red. hey. və b. – şəhər: nəşriyyat, – cildin nömrəsi. – nəşr ili. – həcmi. | Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.<br><br>Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H.Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.<br><br>Большая Российская Энциклопедия: [в 35 томах]. – Москва: Большая российская энциклопедия, – т. 35. – 2017. – 799 с.<br><br>Чехов, А.П. Полное собрание сочинений и писем: [в 30 томах] / А.П.Че́хов. – Москва: Наука, – т. 18. – 1978. – 528 с.<br><br>The New Encyclopaedia Britannica: [in 32 vol.] / ed. R.P.Gwinn. – 15th edition. - Macropaedia: Knowledge in Depth, – vol. 29. – 1991. – 1121 p.<br><br>Encyclopedia of social work: [in 4 vol.] / ed. L.E.Davis, T.Mizrahi. - Oxford: Oxdord Univ. Press, – vol. 4. – 2011. – 564 p. |
| 2. | Müəllifi göstərilməyən nəşrlər | Əsərin adı / redaktor, tərtib edəni (inisiallar, soyadı). – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan folkloru: (məktəblilər üçün seçmələr) / tərt. ed. B.Abdulla – Bakı: Şərq-Qərb, – 2005. – 360 s.<br><br>Информациоонные системы и технологии в экономике и управлении: учебник для |

Khazar University

| | | | |
|---|---|---|---|
| | | | бакалавров / Под ред. проф. В.В.Трофимова. – 3-е изд., перераб. и доп. – Москва: Юрайт, – 2012. – 522 с. |
| 3. | Müəllifi dörd nəfərədək olan nəşrlər | **Bir müəllifli nəşrlər**<br>Müəllif (soyadı, inisialları) Əsərin adı / Müəllif (inisiallar, soyadı). – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi.<br><br>**İki və üç müəllifli nəşrlər**<br><br>Birinci müəllif (soyadı, inisialları) Əsərin adı / Müəlliflər (inisialları, soyadları); – şəhər (iki şəhər olduqda hər ikisi qeyd olunmalıdır): nəşriyyat, – nəşr ili. – həcmi. | Mehdiyev, R. Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında / R.Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2019. – 232 s.<br>İmanquliyeva, A. Məqalələr və tərcümələr / A.İmanquliyeva, tərt. ed., V.Cəfər. – Bakı: Bakı Çap Evi, – 2010. – 488 s.<br>Nagiev, T.M. Coherent Synchronized Oxidation reactions by Hydrogen Peroxide. – Amsterdam: Elsevier, – 2007. – 340 p.<br>Paşayev, A.M. Atmosfer proseslərinin fiziki əsasları. Dərslik. / A.M.Paşayev, H.İ.Quliyev, S.H.Səfərov – Bakı: Nafta-Press, – 2007. – 416 s.<br><br>Мирзаджанзаде, А.Х. Физика нефтяного и газового пласта / А.Х. Мирзаджанзаде, И.М.Аметов, А.Г.Ковалев, – Москва; Ижевск: Институт компьютерных исследований, – 2005. – 280 с. |
| 4. | Müəllifi dörd və daha çox olan nəşrlər | **Dörd və beş müəllifli nəşrlər**<br><br>Əsərin adı / üç müəllifin inisialları, soyadları [və b.]. – şəhər: nəşriyyat, nəşriyyat yoxdursa [n.y.], – nəşr ili. – həcmi. | Elektron qurğularının əsasları: ali məktəblərin texniki ixtisaslarının tələbələri üçün dərslik / A.M.Paşayev, A.R.Həsənov, İ.Ə.İsgəndərov [və b.] – Bakı: Milli Aviasiya Akademiyası, – 2014. – 312 s.<br><br>Mərkəzi Nəbatat bağının bələdçi kitabçası / O.V.İbadlı, Ü.M.Ağamirov, N.B.Hüseynova [və b.] . – Bakı: [n. y.], – 2003. – 56 s. |
| 5. | Jurnal məqalələri | Müəllif (soyadı, inisialları) Əsərin adı // – şəhər: jurnalın | Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər |

Khazar University

| | | | |
|---|---|---|---|
| | | adı, – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – s. | Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.<br>Huseynova, I.M. Photosynthetic characteristics and enzymatic antioxidant capacity of leaves from wheat cultivars exposed to drought // Biochimico et Biophysica Acta, – 2012, 1817 (8), – p. 1516-1523. |
| | | **Müəllifi üçdən çox olan jurnal məqalələri**<br><br>Birinci müəllifin soyadı, inisialları. Əsərin adı / Üç müəllifin inisialları və soyadları [və b.] // Jurnalın adı, – şəhər: – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – s. | Rüstəmov,Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə.Rüstəmov, İ.A.Yolçuyev, Ə.T.Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.<br>Юсифзаде, Х.Б. Азербайджан – пионер отечественной морской геофизики / Х.Б.Юсифзаде, Ф.Г.Рагимханов, Д.Х.Бабаев [и др.] // Азербайджанское Нефтяное Хозяйство, – Баку: – 1982. №2, – с. 45.<br>Aliyev, J.A. High-dose-rate interstitial brachytherapy for accelerated partial breast irradiation – trial results of Azerbaijan National Center of Oncology / Jamil Aliyev, Isa Isayev, Kamal Akbarov [et al.] // Journal of Contemporary Brachytherapy, – 2017. Apr; 9. – p.106-111. |
| 6. | Konfrans materialları | Müəllif (soyadı, inisialları) Məruzənin adı // konfransın adı, – şəhər: nəşriyyatın adı, – tarixi, – nəşr ili, – s. | Абдуллаев, С.К., Карамалиев, Н.Р. Весовые оценки сингулярных, слабо сингулярных интегралов, максимальных и дробно максимальных функций, ассоциированных обобщенным сдвигом |

Khazar University

| | | | |
|---|---|---|---|
| | | | // Труды IV Международного симпозиума «Ряды Фурье и их приложения», – Ростов-на-Дону: – 28 мая – 3 июня, – 2006, – с. 44-52.<br><br>Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition,– Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423. |
| 7. | Dissertasiyalar | Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: / iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis./ – şəhər, il. – həcmi | Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s. |
| 8. | Dissertasiyanın avtoreferatı | Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis.avtoreferatı./ – şəhər, il. – həcmi | Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 26 s. |
| 9. | Elektron resurslar | Müəllif (soyadı, inisialları), əsərin və ya sənədin adı: [Elekrton resurs] / mənbə. – şəhər, nəşr ili. – elektron daşıyıcı (CD. DVD, audio-kasset, audio-kitab, videofilm) və ya internet ünvanı | Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994.<br>– CD-ROM.<br>Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.<br>Gleason, E. A. Viewpoint: Soft Metal Gains Hulk-Like Strength: [Electronic resource] / Physics 12, 125. – November 11, 2019. |

Khazar University

| | | | |
|---|---|---|---|
| | | | URL:https://physics.aps.org/articles/v12/125 |
| 10. | Təsviri materiallar | Müəllif (soyadı, inisialları) və ya əsərin adı [əsərin növü] / Müəllif (inisialları, soyadı); mənbə. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan - Ana Vətən [İzomaterial] / Kamil Nəcəfzadənin əsərlərinin sərgisi; Azərbaycan Rəssamlar İttifaqı. – Bakı: Azərbaycan, – 1992. – 15 s. |
| 11. | Kartoqrafik nəşrlər: Xəritələr Atlaslar | Müəllif (soyadı, inisialları) əgər varsa, əsərin adı [nəşrin növü] /miqyas / – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan Respublikasının Milli Atlası [Xəritə] / – Bakı: Bakı Kartoqrafiya fabriki, – 2014. – 444 s.<br><br>Dünyanın fiziki xəritəsi [Xəritə] / 1:50 000 000 / – Bakı: Bakı Kartoqrafiya fabriki, – 2005. – 1 v. |
| 12. | Notlar | Müəllif (soyadı, inisialları) əgər varsa, əsərin adı [Notlar]: / Klavir, partitura və s. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Hacıbəyli, Ü. Leyli və Məcnun operası [Notlar]: / Klavir. – Bakı: İşıq, – 1984. – 240 s.<br><br>Караев, К.А. Третья симфония для камерного оркестра [Ноты]: – Москва: Советский композитор, – 1968. – 110 с. |
| 13. | Patentlər | Müəllif (soyadı, inisialları), Patentin adı, növü və nömrəsi, ölkə / Müəllif (soyadı, inisialları) [və b.]: nəşriyyat, – nəşr ili, – nömrəsi | Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].<br><br>Курочкин, А.С., Схема сверхглубокой очистки энергетических масел и внутренних поверхностей маслонаполненного оборудования, Патент на полезную модель № 94173, Российская Федерация / Любимов А.Ф. – 2010. |

Khazar University

| | | | |
|---|---|---|---|
| 14. | Normativ-hüquqi sənədlər | Rəsmi sənədin adı // qəbul edilməsi və dəyişikliklər haqqında məlumat. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.<br>Международная конвенция об охране нематериального культурного наследия // Организация Объединенных Наций по вопросам образования, науки и культуры. – Париж: ЮНЕСКО, – 2011. – VII, – 103 с. |
| 15. | Qəzet məqalələri | Müəllif (soyadı, inisialları). Məqalənin adı // nəşrin adı. – nəşr ili, tarixi. – s. | Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2 |
| 16. | Arxiv materialları | Sənədin adı // arxivin adı, fondun, siyahının, işin nömrələri, vərəqlərin sayı. | Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1. |

Khazar University